# *Hikmət ÇƏTİN:*

# "Heydər Əliyev türk dünyasının ağsaqqalı idi"

"Qlobal Bakı Forumu ildən-ilə təkmilləşir və dünyanın gündəmində olan məsələlərin müzakirə edildiyi çox vacib platformaya çevrilir".




Bu fikirləri Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə martın 12-də keçirilən tədbirdə AZƏRTAC-a açıqlamasında söyləyib.

Hikmət Çətin deyib: "Problemlər var, amma onun həlli yolları, ümidlər də var. Münaqişələrin, müharibələrin də həlli vardır. Otuz il Ermənistanın işğalından əziyyət çəkən Azərbaycan, nəhayət ki, hərbi yolla öz torpaqlarını geri qaytardı. Davam edən təxribatlara baxmayaraq, qardaş Azərbaycan sülh gündəliyinə sadiqlik nümayiş etdirir. Cənubi Qafqazda təhlükəsizlik təmin olunmalıdır".

Heydər Əliyevi tanıdığı üçün özünü çox şanslı hesab etdiyini söyləyən Türkiyənin sabiq xarici işlər naziri bildirib ki, Ulu Öndər türk dünyasının ağsaqqalı idi: "Xoşbəxt və şanslı insanam ki, türk dünyasının ağsaqqalı Heydər Əliyevlə yaxın münasibətlərimiz olub. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir", - deyə Hikmət Çətin qeyd edib.


Azərbaycan.- 2023.- 14 mart.- S.5.